TEYLOR CENKİNS RİD

# EVELİN HÜQONUN YEDDİ ƏRİ

Tərcüməçi:
Lalə Qasımlı

qanun nəşriyyatı

TAYLOR JENKINS REID

# THE SEVEN HUSBANDS OF EVELYN HUGO

Sənə bütün hekayəni danışacağıma söz vermişdim.
Hazırsansa, başlayaq.

*Hörmətlə, Evelin*

---

Hollivudun ən parlaq ikonalarından biri olan Evelin Hüqo, nəhayət ki, dəbdəbəli və qalmaqallı həyatı haqqında həqiqətləri danışmağa hazır idi. Lakin o, bunun üçün tanınmamış müxbir Monik Qrantı seçəndə nə iş həyatında, nə də sevgidə uğur qazanmayan Monikdən daha çox heç kim təəccüblənə bilməzdi. Ancaq Evelinin niyə onu seçdiyi barədə narahat olmaq yerinə, bundan tramplin kimi istifadə etməyin əsl vaxtı idi.

Evelin 50-ci illərdə onu Los-Ancelesə gətirən və 80-ci illərdə şou-biznesdən getməsinə səbəb olan məsələləri və təbii ki, bu müddət ərzində yeddi dəfə nikah bağlaması haqqında sirləri açıqlayarkən, böyük və qadağan olunmuş eşq macəraları və sağalmaz ambisiyaları barədə həqiqətlər meydana çıxacaqdı. Əfsanəvi ulduzla müxbir arasında münasibət qurularkən Monik öz həyatına tamamilə yeni bir perspektivdən nəzər salmalı olacaqdı.

**NEW YORK TRIBUNE**

**PRIYA AMRIT** **2 mart 2017**

---

## Evelin Hüqo paltarlarını hərracda satacaq

Əfsanəvi kinoulduzu və altmışıncı illərin media ulduzu ən yaddaqalan geyimlərindən on ikisini Kristizdə hərraca çıxaracağını və əldə etdiyi gəliri süd vəzisi xərçəngi tədqiqatlarına sərf edəcəyini açıqladı.

79 yaşındakı Hüqo uzun müddətdir ki, əzəmət və zəriflik simvoludur. O, sadə, ancaq eyni zamanda seksual stili ilə tanınır. Hüqonun ən məşhur obrazlarının mühüm bir hissəsi moda və Hollivud arxivlərinin məhək daşı kimi dəyərləndirilir.

Hüqoya məxsus nəyəsə sahib olmaq istəyənlər sadəcə paltarın özü ilə deyil, onun harada geyinilməsi ilə də maraqlanırlar. Satışa çıxan geyimlərin arasında Hüqonun 1959-cu il "Oscar" mükafatı mərasimində "Miranda La Conda" firmasından geydiyi zümrüd rəngli donla yanaşı, 1962-cı ildə "Anna Karenina" filminin premyerasında geydiyi yasəmən rəngli şifonabənzər sufle parçadan dərin yuvarlaq dekolte və 1982-cı ildə "All of us" filmi "Oskar" alanda əynində olan, "Michel Maddax" firmasından tünd-göy ipəkdən don da var.

Hüqonun adı bir çox Hollivud qalmaqallarında hallanmışdır. Bunların arasında yeddi nikahdan əlavə, onun kino prodüseri Herri Kameronla uzun illər davam edən münasibəti də var idi. Hollivud cütlüyünün bu hərracda da böyük təsiri danılmaz olan Konnor Kameron adında bir qızları vardı. Konnor Kameron keçən il 41 yaşı tamam olduqdan qısa bir müddət sonra döş xərçəngindən vəfat etdi.

1938-ci ildə kubalı mühacir bir ailənin qızı olaraq Evelin Elena Herrera adı ilə dünyaya gələn Hüqo, Nyu-Yorkun "Hels kitçin" məhəlləsində böyüdü. 1955-ci ildə Hollivuda gəldi və saçlarını sarı rəngə boyatdırıb adını Evelin Hüqo olaraq dəyişdirdi. Hüqo, demək olar, bir gecədə Hollivud elitasından biri oldu. 80-ci illərin sonunda təqaüdə çıxıb prodüser Robert Ceymisonla – üç dəfə "Oscar" almış aktrisa Siliya Sent Ceymsin qardaşı – evlənmədən əvvəl otuz il ərzində projektorların altında oldu. Yeddinci əri öldükdən sonra dul qalan Hüqo Manhettendə yaşayır.

O, öz süni gözəlliyi, ən sevilən əzəmət nümunəsi və cəsarətli seksuallığı ilə uzun müddət bütün dünya kinosevərlərinin diqqət mərkəzində oldu. Hərracda əldə ediləcək gəlirin iki milyona çatacağı gözlənilir.

# 1

– OFİSİMƏ GƏLƏ BİLƏRSƏN?

Əvvəlcə ətrafımdakı masalara, sonra Frenkiyə baxaraq kiminlə danışdığından əmin olmağa çalışdım. Özümü göstərib, "Mənə deyirsən", deyə soruşdum.

Frenki çox səbirli deyildi.

– Bəli, Monik, sən. Buna görə, "Monik, ofisimə gələ bilərsən?" dedim.

– Üzr istəyirəm, sadəcə sonunu eşitdim.

Frenki geri çevrildi. Mən də bloknotumu götürüb arxasınca getdim.

Frenkidə diqqətçəkən bir şey vardı. Ənənəvi olaraq cəlbedici biri olduğunu deməyə çəkinirdim. Sərt üz cizgiləri, iri gözləri vardı. Yenə də ona heyranlıqla baxmamaq mümkün deyildi. 1.80-lik incə bədəni, qısa kəsilmiş qıvrım saçları, parlaq rənglərə və böyük aksesuarlara marağı ilə Frenki harasa daxil olanda hər kəs ona baxardı.

Bu işə başlamağımın səbəblərindən biri də odur. Jurnalistika fakültəsində oxuyanda ona heyran idim. Hazırda rəhbərlik et-

diyi və mənim də fəaliyyət göstərdiyim jurnalın səhifələrindəki bütün yazılarını oxuyurdum. Düzünü desəm, zənci bir qadının idarəçiliyi də olduqca ruhlandırıcı idi. Frenki iki irqli bir qadın kimi – açıq-qəhvəyi dərim, zənci atamdan aldığım tünd-qəhvəyi gözlərim və ağ anamdan aldığım üzümdəki çoxlu çillə – bir gün mənim də rəhbər ola biləcəyimi hiss etdirirdi.

Frenki kresloya otürarkən, əli ilə de Luciste masasının qarşısındakı narıncı stulu göstərərək:

– Otur, – dedi.

Sakitcə oturub, ayağımı ayağımın üstünə aşırdım. Və Frenkinin sözə başlamağını gözlədim.

Frenki kompüterə baxaraq:

– Bəli, işlər təəccüblü hal aldı. – dedi. Evelin Hüqonun nümayəndələri uzun bir məqalə istəyir. Xüsusi reportaj.

Ürəyimdən bir an, "Sən işə bax!", demək keçdi.

– Yaxşı, bəs, bunu mənə niyə deyirsən? Tam olaraq nə haqqında? – deyə soruşdum.

– Məncə söhbət onun keçirdiyi paltar auksionundan gedir. – Frenki dedi. Amerika Süd Vəzi Xərçəngi Fonduna mümkün qədər çox pul toplamağın onun üçün vacib olduğunu anladım.

– Ancaq onlar bunu təsdiqləmirlər?

Frenki başını buladı.

– Sadəcə Evelinin nə isə deyəcəyini bildirirlər.

Evelin Hüqo bütün zamanların ən böyük kinoulduzlarından biri idi. İnsanların onu dinləməsi üçün nə isə deməyinə ehtiyacı yox idi.

– Bu mövzunu manşetə çıxarmaq olar, elə deyil? Axı o, canlı əfsanədir. Deyəsən, səkkiz dəfə evlənibdir elə?

– Yeddi. – Frenki dedi. Bəli, onun potensialı yüksəkdir. Elə buna görə də növbəti mərhələdə mənə qarşı tolerant olacağına ümid edirəm.